# HƏYATININ ƏSAS TARİXLƏRİ

| | |
|---|---|
| **1933-cü il** | Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu, Nurs kəndində anadan olmuşdur. |
| **1940-cı il** | Şahbuz rayonunun Nurs kəndinin 1-ci sinfində təhsilə başlamışdır. |
| **1945-ci il** | Atası İnfil kişi «xalq düşməni» adı ilə Sibirə sürgün olunmuşdur. |
| **1949-cu il** | Kəndşahbuzda orta məktəbi bitirmişdir. |
| **1950-ci il** | APİ-nin coğrafiya fakültəsinə daxil olmuş və eyni zamanda yaradıcılığını da davam etdirmişdir. |
| **1951-ci il** | Yazıçı İ. Şıxlının təşkil etdiyi ədəbi dərnəyin məşğələlərində iştirak edir. |
| **1952-ci il** | "İnqilab və mədəniyyət" jurnalının may nömrəsində "Yanın işıqlarım" şeiri çap olunur. Mətbuatda çap olunmuş bu şeirilə ədəbiyyat aləminə qədəm qoymuşdur. |
| **1954-cü il** | APİ-ni bitirmiş, təntənəli buraxılış gecəsində məzunlara həsr olunmuş "Ayrılıq" şeirini oxumuşdur. |
| **1955-56-cı illər** | Şahbuz rayonunun Nurs kəndində müəllim işləmişdir. |
| **1957-ci il** | Azərbaycan Nazirlər Soveti yanındakı Baş Mətbuat İdarəsində müvəkkil vəzifəsinə işə qəbul edilmişdir. Həmin il "Üç oğul anası" poemasını çap etdirmişdir. |

| | |
|---|---|
| | Azərbaycan Yazarlar Birliyinin üzvü olmuşdur. |
| **1958-ci il 8 noyabr** | Ailə həyatı qurmuşdur. |
| **1959-cu il** | “Sevgi nəğməsi” adlı ilk şeirlər kitabı “Azərnəşr”də çap olunmuşdur. |
| | Moskva SSRİ Yazıçılar İttifaqı nəzdindəki M. Qorki adına ikiillik Ali Ədəbiyyat kursuna daxil olmuşdur. |
| **1961-ci il** | Ali Ədəbiyyat kursunu bitirdikdən sonra “Maarif” nəşriyyatında redaktor işləmişdir. |
| | “Üç oğul anası” şeirlər kitabı çapdan çıxmışdır. |
| **1962-ci il** | M.Ə.Sabirə həsr olunmuş “Mən də insan oldum” poeması tamamlanıb dövrü mətbuatda dərc olunmuşdur. |
| **1963-cü il** | Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat redaksiyasının müdiri vəzifəsinə irəli çəkilmişdir. |
| | “Mən səni taparam” kitabı nəşr edilmişdir. |
| **1964-cü il** | “Araz axır” adlı poemalar toplusu çapdan çıxmışdır. |
| **1965-ci il** | Dövrü mətbuatda şer və məqalələri ilə çıxış etmişdir. |
| **1966-cı il** | “Anamdan yadigar nəğmələr” adlı kitabı nəşr edilmişdir. |
| **1967-ci il** | “Ulduz” jurnalına məsul katib təyin edilmişdir. |
| | “Ömür karvanı” kitabı “Azərnəşr”də çap olunmuşdur. |

| | |
|---|---|
| **1968-ci il** | Məqalə və şeirləri ilə dövrü mətbuatda çıxış etmişdir. |
| **1969-cu il** | “Gənclik” nəşriyyatında “İllərdən biri” kitabı çapdan çıxmışdır. |
| **1970-ci il** | “Ədəbiyyat və incəsənət” qəzetində baş redaktor müavini vəzifəsində çalışmışdır. |
| **1971-ci il** | Azərbaycan Yazıçılar İttifaqının poeziya bölməsinə 1981-ci ilə qədər rəhbərlik etmiş, milli şerin inkişafına, ədəbi gəncliyin formalaşmasına səy göstərmişdir. “Yer üzünün Qarabağ düzü”, “Qarabağ simfoniyası” məqalələrini çap etdirmişdir. |
| **1972-ci il** | “Ədəbiyyat və incəsənət” qəzetində N. Nərimanovun anadan olmasının 100 illiyi ilə ədaqədar hazırlanmış xüsusi nömrədə verilmiş materiallara görə millətçi kimi baş redaktor müavini vəzifəsindən azad edilmişdir. |
| **1973-cü il** | “Qanadlı qayalar” kitabı işıq üzü görmüşdür. |
| | Azərbaycan Dövlət Nəşriyyatı Baş redaktorunun müavini kimi işləmişdir. |
| **1974-cü il** | “Gənclik” nəşriyyatında “Atamın kitabı” kitabı çap olunmuşdur. |
| | Yeni nəşrə başlayan “Azərbaycan təbiəti” jurnalının baş redaktorluğuna irəli çəkilmiş və ömrünün sonuna qədər orada işləmişdir. |
| | “Həyatın və sözün rəngləri” adlı publisist kitabı nəşr edilir. |
| **1975-ci il** | Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif olunmuşdur. |

| | |
|---|---|
| **1978-ci il** | “Oxucuya məktub” kitabı “Gənclik” nəşriyyatında çap edilmişdir. |
| | Əməkdar mədəniyyət işçisi fəxri adına layiq görülmüşdür. |
| **1979-cu il** | “Aylarım, illərim” adlı kitabı oxucuların ixtiyarına verilmişdir. |
| **1982-ci il** | Azərbaycan SSR Fəxri fərmanı ilə təltif olunmuşdur. |
| | “Dünya sənin, dünya mənim” şeirlər kitabı Azərbaycan SSR Dövlət mükafatına təqdim olunmuş, lakin məlum səbəblərə görə mükafat verilməmişdir. |
| **1983-cü il** | “Dünya sənin, dünya mənim” kitabı “Yazıçı” nəşriyyatında nəşr edilmişdir. |
| **1984-cü il** | Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. |
| **1986-cı il** | «Seçilmiş əsərləri» kitabı “Yazıçı” nəşriyyatında çap olunmuşdur. |
| **1988-ci il** | “Azərbaycan” və “Ulduz” jurnallarında çap olunmuş şeirlər silsiləsinə görə Azərbaycan Respublikasının Dövlət mükafatını almışdır. |
| **1991-ci il** | Azərbaycan Respublikasının Xalq şairi fəxri adına layiq görülmüşdür. |
| | Türkiyədə Məhəmməd peyğəmbərin doğum günü münasibətilə keçirilən müsabiqədə “Ya rəbbim, bu dünya sən quran deyil” adlı şeirinə görə xüsusi mükafatla təltif olunmuşdur. |
| **1992-ci il** | “Daş harayı” kitabı çap olunmuşdur. |

| | |
|---|---|
| | “Dünya düzəlmir” kitabı oxuculara çatdırılmışdır. |
| **1994-cü il** | “Qayalara yazılan səs” kitabı çap edilir. |
| **1995-ci il** | Müstəqil Azərbaycanın ən yüksək mükafatı – «İstiqlal» ordeni alan ilk üç şairdən biridir. |
| | Dövlət tərəfindən Almaniyaya müalicəyə göndərilir. |
| **1997-ci il** | “Yol ayrıcında söhbət” kitabı oxuculara təqdim olunur. |
| **2001-ci il** | “Sənətdə son mənzil olmur” publisist kitabı nəşr olunur. |
| **2002-ci il** | Uşaqlar üçün yazılmış şerləri toplu halında “Şikayət dəftəri” adı ilə “Adiloğlu” nəşriyyatında çap edilir. |
| | “Qayalara yazılan səs” kitabı Təbrizdə ərəb əlifbası ilə çap olunur. |
| | “Ağlayan qayalar” adlı suvenir kitabı çap edilir. |
| **2003-cü il** | Son illərin şerləri “Vətən deyin” adlı kitabında çap olunmuşdur. |
| | “Əsgər andı” kitabı çap edilib əsgərlərə paylanır. |
| | Cildləri – 1-2-3-4 – dörd cilddə toplanıb çap olunmuşdur. |
| **2004-cü il** | Dövlətin qərarı ilə 1-2 cildliyi çap edilmişdir. |
| | “Çaşıoğlu” nəşriyyatında “Seçilmiş əsərləri” kitabı nəşr edilmişdir.<br>Dekabrın 1-də günorta saat 13.40-da vəfat etmişdir. |